Kaspi 2020.- 2-4 may.- S.14.

# ELBARİZ MƏMMƏDLİ – 60



■ Elbariz MƏMMƏDLİ

*Elbariz Məmmədlinin 60 yaşı tamam olur - yubileyi münasibətilə ürəkdən təbrik edir, ona həyatda həmişə sevincli günlər arzulayırıq!*

## QATARLAR ŞÜTÜYÜR GECƏ YARISI

Qatarlar şütüyür gecə yarısı,
Ümidlər yol gedir, gözü mürgülü.
Uzaq vağzallarda yol gözləyən var,
Ürəyi qanadlı, üzü mürgülü.

Pozulur gecənin tənha sükutu,
Qatarlar qılınc tək kəsir zülməti.
Ağaclar elə bil canlı adamdır,
Yollar kənarında - başında çətir.

Şütüyür qatarlar - üzü səhərə,
Bir azdan qızaran üfüq yanacaq.
Uzaq vağzallarda heykəl adamlar,
Bir şirin görüşə qanadlanacaq.

Sonuncu sərnişin enəcək harda?
Görəsən, səfəri nə ünvanlıdır?
Mənzilə çatmağa elə tələsir,
Elə bil qatar da həyəcanlıdır.

Kimin duyğusudur gözü yol çəkən?
Kimdi yuxusunda qatarlar görən?
Ümidlər küləklə uçsa mənzilə,
Qatarlardan tezmi çatarlar, görən?

Göz yuxuya həsrət, ürək dincliyə,
Yollar da uzanır, bitirmək olmur.
Duyuğuda mənzilə  yetən istəyi,
Hələ ki, qatarla yetirmək olmur.

Öldürür özünü çöldə küləklər,
Bağlı pəncərələr sipər kimidi.
Gecənin içindən sıyrılan qatar.
Zülmətdə işıqdan çəpər kimidi.

Elə hökmlüdür bu saat, bu an,
Qatarlar həsrəti yenəsi kimi.
Geyib ayağına naxış yolları,
Elə bil mirvarı dənəsi kimi.

Qatarlar şütüyür gecə yarısı,
Ümidlər yol gedir, gözü mürgülü.
Uzaq vağzallarda yol gözləyən var,
Ürəyi qanadlı, üzü mürğülü

## AĞRI

Aman Tanrım, biz nəyinə uymuşuq,
Ömrümüzü uralayan şəhərin.
Dərdimizə əlac olmaq yerinə,
Dərdimizi sıralayan şəhərin.

Duyğuları hər addımda can yaxır,
Yaşantısı elə bil ki, hüzndü,
Hər səhəri əzab yüklü qatardı,
Hər axşamı fikirlərdən üzüntü.

Ruh ovudan havası da yoxdu, yox,
Adamların baxışları buz kimi.
Ümidləri küləklərlə tozlanan,
Arzuları, alqışları buz kimi.

Gündoğandan günbatana qaynayır,
Çiyni yüklü, könlü dolu, əli boş.
Vaxt əridir küçələrin tinində,
Çörək uman nökəri boş, qulu boş.

Gecə-gündüz işıqları bərq vuran,
Sarayları neçə kəndi boşaldıb.
Yağı gəlib sinirlərə dirənib,
Yağı gəlib bərə-bəndi boşaldıb.

Torpaq haqqı, Vətən haqqı xatirə,
Hamı rahat yaşamağa sevdalı.
Bu mədəni cəhənnəmin içində,
Hamı həyat yaşamağa sevdalı.
Zaman gedir, vədə ötür, vaxt ötür,
Ümidi boş hər açılan səhərin.
Əbəs yerə asılmışıq canından,
Canımızı uralayan şəhərin.

## PAYIZ SƏNİ XATIRLADIR, ƏZİZİM

Ümidimin yenə günü qaralıb,
Günlərimin dar macalı daralıb,
Duyğularım yarpağtək saralıb,
Payız səni xatırladır, əzizim.

Gecələrin hönkürtü var içində,
Ömrüm-günüm uralanır, "biçində",
Durnaların həsrət dolu köçündən,
Payız səni xatırladır, əzizim.

Yay ötməmiş dağ başında duman var,
Çiçəyindən hələ neçə uman var,
Aramızda bir saralmış zaman var,
Payız səni xatırladır, əzizim.

Buludların tər içində atları,
Gör, nə vaxtsız "dingildədir" otları,
Ürəyimdə xatirədən qatları,
Payız səni xatırladır, əzizim.

Çiçəklərin olum-ölüm qorxusu,
Gözlərində daşa dönüb yuxusu,
Nəfəsində ayrılığın qoxusu,
Payız səni xatırladır, əzizim.

Çıxammıram həsrətinin əlindən,
Düşəmmirəm dərd dağının belindən,
Ləçəkləri səpələnən gülündən,
Payız səni xatırladır, əzizim.

Sevdan üçün keçdim ömrün başından,
Duz yaladım yanağımın yaşından,
Çaylaqların tənha qalan daşından,
Payız səni xatırladır, əzizim.
Payız məni xatırladır, əzizim.

## ÖMRÜ

Bu da bir sevda ömrü,
Yaz ömrüydü, yaşadıq.
Bütün dərd-ələmiylə,
Düz ömürdü, yaşadıq.

Umduq, güvəndik sözə,
Döndü dilimiz közə.
Sətirlərlə üz-üzə,
Söz ömrünü yaşadıq.

Gördük qanadlı, ömrü,
Duyğusu atlı ömrü.
Məhəbbət adlı ömrün,
Öz ömrünü yaşadıq.

## PAYIZ

Tez gəlibdi bu payız,
Niyə tələsib, görən?
Ağaclar yoluq-yoluq,
Yarpaqlar pərən-pərən.

Buludlar yarışmada,
Küləklər cıdırdadı.
Çiçək var doğulmayıb,
Çiçək var cığırdadı.

Çəkib göyü köksünə,
Meşələr qürub kimi.
Günəş elə sozalıb,
Göydə don vurub kimi.

Tez gəlibdi bu payız,
Tutub göyü dağ kimi.
İçim yaz havalıdır,
Bir yaşıl yarpaq kimi.

## DURNA KÖÇÜNDƏ

Asılmışam havadan,
Üzüm durna köçündə.
Ürəyim səndə qalıb,
Gözüm durna köçündə.

Harayı can yandırır,
Canımı usandırır,
Həsrətini andırır,
Düzüm durna köçündə.

Havası qəm üstədi,
Nə ağrılı bəstədi,
Çıxıb getmək istədim,
Özüm durna köçündə.

Nə səs oldu, nə haray,
Ötənləri özün say,
Getdi xoş günlər, vay-vay,
Bizim durna köçündə.